Tarixi faktlar

Milli Şura İrəvanı ermənilərə niyə vermişdi?

Tarix elmləri doktoru, professor, AMEA-nın Tarix İnstitutunun direktor müavini Cəbi Bəhramovla müsahibə

- İrəvan sözünün mənşəyi və şəhərin əsasının qoyulması ilə bağlı erməni mənbələrində müxtəlif iddialar mövcuddur. Guya bu şəhər qədimdən erməni şəhəri olan Erebunidir, ona görə də Erevan adlandırılır. Bəzi qaynaqlarda isə Şah İsmayılın vəziri Rəvanqulu xanın adı ilə bağlayırlar. Tarixi həqiqət necədir?

- İrəvan sözünün mənşəyi orta əsrlərə aiddir. Azərbaycan Səfəvi dövləti ərazi inzibati nöqteyi-nəzərdən 14 bəylərbəyliyə bölünürdü. Azərbaycan Səfəvilər dövlətinin yarandığı ərazi bizim tarixi ərazilərimizdir və onların ümumi sahəsi 440 000 km^2 təşkil edirdi. Bu ərazi 4 bəylərbəylikdən ibarət idi. Onlardan biri də Çuxur-Səəd bəylərbəyli idi. Bu bəylərbəyliyin mərkəzi isə İrəvan şəhəri idi. Bu şəhərin yerləşdiyi məkan bilavasitə I Şah İsmayılın 1504-cü ildə verdiyi qərar ilə Rəvanqulu xan tərəfindən 7 il ərzində tikilib və bu şəhərin adı onun adı ilə bağlıdır. Ona görə də İrəvanın ermənilərin iddia etdiyi kimi Erebuniyə aidliyinin heç bir tarixi və faktiki əsası yoxdur. Digər tərəfdən Erebuni bir tarixi abidə kimi yenə ermənilərə deyil, urartulular-a məxsusdur. Çünki, e.ə II minilliyin II yarısı - I minilliyin I yarısına aid qədim mixi yazılar da bunu təsdiq edir.

Bizim institutun nəşr etdiyi, görkəmli alim, mərhum Solmaz xanım Qaşqayın müəllifi olduğu "Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə" (Bakı, 2006 - red) adlı əsərdə bu ərazilərin eradan əvvəl VII əsrə qədər Urartu dövlətinin nəzarəti altında olduğunu təsdiq edən mixi yazılı mənbələr var. Bu mixi yazılar XX əsrin 50-60-cı illərində gürcü alimi G.A.Melikişvili və alman alimi V.Keyq tərəfindən oxunub və onların urartulular məxsusluğu təsdiq olunub. Digər tərəfdən bu ərazi vaxtilə Azərbaycan ərazisində yaranan ilk mərkəzləşmiş dövlət, eradan əvvəl IX-VI əsrlərdə mövcud olan Manna dövlətinin ərazisi olub. Ona görə də ermənilərin buna hər hansı bir iddiasının əsası yoxdur. Çünki, ermənilərin bu ərazilərə Balkanlardan köçüb gəlməsi məsələsi tarix elmində sübut olmuş məsələdir. Bu məsələ istər Rusiya və sovet tarixşünaslığında, istər qədim dövr üzrə məşhur alim İqor Mixayloviç Dyakonovun, Vasili Vasilyeviç Struverin, erməni mənşəli ABŞ alimi Nina Qarsoyanın, istərsə də Azərbaycan alimləri İqrar Əliyevin, Solmaz Qaşqayın, Yaqub Mahmudovun, Allahverdi Əlimirzəyevin və digərlərinin əsərlərində sübut olunub.

Ümumən ermənilərin bir "millət" (A.Frenkel - tayfa olaraq - C.B.) olaraq Cənubi Qafqaza heç bir aidiyyəti yoxdur. Bundan başqa, Azərbaycan alimləri yüksək peşəkarlıq göstərərək, XX əsrin 70-ci illərində yapon alimlərinin tədqiqatlarından ilk növbədə, odontoloji müqayisəli tədqiqat üsulundan istifadə edərək, (Akademik İqrar Əliyev - C.B) bölgədəki xalqların hansının yerli, hansının gəlmə olduğunu araşdırarkən, ermənilər gəlmə xalqlar arasında öz yerini tutub. Ona görə də konkret olaraq istər indiki Ermənistan ərazisinin, istərsə də Cənubi Qafqazın yerli xalqı olmaları ilə bağlı irəli sürdükləri bütün iddialarının heç bir elmi və tarixi əsası yoxdur.

- İrəvan xanlığı Çar Rusiyası işğalına qarşı sona qədər müqavimət göstərib. Bunun nəticəsidir ki, Çar Rusiya tərəfindən sonuncu işğal olunan Şimali Azərbaycan xanlıqlarından biridir. Son İrəvan xanının rus işğalçılarına qarşı qəhrəmanlıq tarixi haqda nə deyə bilərsiniz?

- İrəvan xanlığı Rusiya tərəfindən asanlıqla işğal olunmayıb. İrəvan xanlığı bir çox Şimali Azərbaycan xanlıqlarından fərqli olaraq qəti şəkildə rus işğalını qəbul etməmiş və buna qarşı 24 il mübarizə aparmışdır. O zaman xanın əmri ilə ermənilər qalaya köçürülür ki, ruslarla əlaqə yaratmasınlar. Lakin çox təəssüflər olsun ki, 4-cü yürüş zamanı erməni xəyanəti nəticəsində xanlıq işğal olundu. Bu müddət ərzində Rusiya çarı I Nikolay təəccüb içində soruşur ki, bu kiçik bir ərazini Rusiya ordusu nə üçün işğal edə bilmir? 1827-ci ildə işğaldan sonra general Paskeviçə İrəvanski ləqəbi verilir. Böyük miqdarda qızıl hədiyyə olunur. Onun adına sikkələr zərb olunur. Maraqlıdır ki, həmin sikkələrin üzərində İrəvan şəhərindəki məscidlər və onların minarələrinin şəkilləri həkk olunub. Xanlıq işğal olunandan sonra 1827-ci ildə I Nikolay İrəvan şəhərində olarkən xan sarayının möhtəşəmliyindən vəcdə gəlir. Hətta burada A.Qriboyedovun "Ağıldan bəla" əsəri tamaşaya qoyulur. 100 il sonra 1914-cü ilə qədər ermənilər həmin sarayı tədricən sökdülər. Elə həmin 1914-cü ildə ermənilər I Nikolayın yatdığı otağı tualetə çevirdilər. Bu da ermənilərin öz ağalarına olan "səmimi" münasibətlərinin göstəricisidir. Rusların özü də bilirlər ki, ermənilər kimdir. Bununla bağlı çox maraqlı bir faktı da oxucuların diqqətinə çatdırmaq istəyirəm. Bu yaxınlarda KİV-dən məlum oldu ki, Ermənistan adlanan qondarma dövlətin faşist rəhbərliyi 1918-1920-ci illərdə qədim Azərbaycan torpağı Zəngəzurda azərbaycanlılara qarşı soyqırımı cinayətləri törətmiş, 1935-ci ildən isə Hitler Almaniyasının liderləri (Himler, Gebbels, Müller) ilə yaxından əməkdaşlıq etmiş, 1941-1945-ci illər müharibəsi zamanı Ukrayna, Rusiya Federasiyası, Polşa, Bolqarıstan, Rumıniya ərazilərində yəhudilərə və digər xalqlara qarşı soyqırım cinayətlərinin təşkilatçılarından biri Qaregin Njdeyə 2016-cı il mayın 28-də İrəvanda abidə qoydular. Forpost Ermənistanın bu hərəkəti Rusiya Federasiyasının siyasi rəhbərliyinin qəzəbinə səbəb oldu və RF XİN-nin sözçüsü Mariya Zaxarova bununla bağlı bəyanat verdi. Bundan əlavə erməni ailəsini güllələmiş Rusiya Federasiyası ordusunun əsgəri Permyakovla bağlı 2014-cü ildə ermənilər baş qaldıranda, ilk növbədə ermənipərəst Rusiya Federasiyası alimləri birbaşa onları hədələdilər ki, nə atılıb-düşürsüz? Bu torpaqları biz işğal edib, sizlərə vermişik. Ora sizin torpağınız deyil.

- Ermənilərin Cənubi Qafqaza kütləvi surətdə köçürülməsi 1828-ci il Türkmənçay müqaviləsindən sonra baş verdi. Bununla bağlı fikirləriniz maraqlıdır. Tarixi hadisələr o zaman necə cərəyan edirdi?

- Ermənilərin bu regiona kütləvi köçürülməsi Çar Rusiyasının 1813 və 1828-ci illərdə Şimali Azərbaycan torpaqlarının işğal etməsi ilə bağlıdır. Ancaq, onların orta əsrlər və ya daha əvvəlki dövrdə köçməsi kimi faktlara çox az şəkildə rast gəlinir. Söhbət burada Azərbaycan Qaraqoyunlu dövlətinin (1410-1467) hökmdarı Cahan şahın (1435-1467) icazəsi ilə indiki Türkiyə Cümhuriyyətinin Sivas şəhərindəki erməni kilsəsinin katalikosluğunun 1441-ci ildə Eçmiədzin kilsəsinə köçürülməsi qərarından gedir. Təxminən 300-ə qədər din xadimi Eçmiədzin adlanan əraziyə köçürülüb. Amma, bütövlükdə ermənilərin Cənubi Qafqazda kompakt şəkildə yaşaması faktı olmayıb. Azərbaycan Səfəvilər dövlətinin hökmdarı I Sah Abbas (1587-1629) XVII əsrin əvvəlində qərar qəbul etmişdi ki, Eçmiədzin kilsəsini indiki İsfahan şəhərinin yaxınlığında yerləşən Culfa (ermənilər onu Cuğa adlandırırlar - C.B.) şəhərinə köçürsün. Söhbət İran Culfasından gedir. O zaman ermənilər şah xəzinəsinə çox böyük miqdarda pul ödəyərək Eçmiədzinin orada qalmasına nail oldular. Amma, ermənilərin kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına köçürülməsi Çar Rusiyasının Şimali Azərbaycanı işğal etmək məqsədi ilə həyata keçirdiyi siyasətin ümumi nəticəsidir. Ermənilərin köçürülməsi üçün Çar Rusiyası hökuməti xüsusi komissiya yaratmışdı və ona səfir A.Qriboyedov, ermənilərin nümayəndəsi Q.Lazarev rəhbərlik edirdilər. Köçürmə işi isə əsasən ilk mərhələdə Osmanlı imperiyası (85 min), Qacarlar İranı (40 min) və Cənubi Azərbaycanın bir sıra şəhərlərindən, konkret olaraq Marağa şəhərindən həyata keçirilib. Hətta ermənilər 1978-ci ildə Ağdərə rayonunda Marquşavan adlanan ərazidə buraya köçürülmənin 150 illiyi ilə əlaqədar abidə qoymuşdular. 1988-ci ildə isə bu abidəni dağıtdılar ki, guya onlar burada Adəm və Həvvanın dövründən yaşayırlar. Bundan əlavə, bu yaxınlarda forpostun (Ermənistanın - C.B.) təyin edilmiş başçısı Serj Sərkisyan məhşur telejurnalist Vladimir Poznerə verdiyi müsahibəsində aydın şəkildə bunu etiraf etdi və bu müsahibə zamanı onun çox gülünc bir vəziyyətə düşdüyünü milyonlarla insan müşahidə edib. Digər bir fakt ondan ibarətdir ki, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Rusiya ermənilərinin lideri A.Abramyanın və erməni jurnalistinin verdikləri suala cavab olaraq I Pyotrun vəsiyyətini və Çar Rusiyası dövləti tərəfindən bunun həyata keçirilməsi faktını xatırladı.

Bütün bu sənədlər və faktlar Rusiya Federasiyası və Azərbaycan Respublikası dövlət arxivlərində saxlanılır. Bu sənədlər Tarix İnstitutuna institutun direktoru, AMEA-nın müxbir üzvü Y.M.Mahmudovun təşəbbüsü ilə işlənib hazırlanan layihə əsasında gətirilib. Bütün bu məsələlər gətirilən sənədlər əsasında bizim yazdığımız, dövlət mükafatına layiq görülən və 8 dilə tərcümə olunan "İrəvan Xanlığı, Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" (Bakı, 2009) adlı əsərdə öz əksini tapıb. Maraqlıdır ki, bu kitaba ermənilər tərəfindən heç bir etiraz olmadı. Digər bir tərəfdən biz onların öz mənbələrini, ermənilərin məşhur "Cambır" adlı qiymətli mənbəsini ələ keçirdik. Hansı ki, burada faktlar ağ kağıza qara hərflərlə yazılıb. Eyni zamanda şəxsən mənim əldə etdiyim, bir məqalədə adına rast gəldiyim kitab, hansı ki, ermənilərin Azərbaycanla bağlı planlarını əks etdirən əsərdir. Bu kitab 1895-ci ildə rus dilində nəşr olunub. Amma, kitab ermənilər tərəfindən bizim kitabxanalardan götürülüb. Görünür, bu vaxtilə Anastas Mikoyan tərəfindən verilən göstərişdən sonra baş verib. Amma, mən onun tərcüməsinin əlyazmasını tapdım. Bu işdə mənə böyük kömək göstərmiş, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun keçmiş direktoru f.ü.e.d., mərhum Məmməd Adilovun ruhuna rəhmət oxumaq istəyirəm. Ruhu şad olsun, qəbri nurla dolsun. Bu tərcümə 1917-ci ildə "Açıq Söz" qəzetinin redaksiyasında İsmixanov soyadlı bir azərbaycanlı ziyalı səxs tərəfindən tərcümə və çap etdirilib. "Erməni hərəkatının qısa tarixi" adlı bu kitabın müəllifi Kiqamyantsdır. Bu kitabda ermənilərin Azərbaycan torpaqlarını ələ keçirmək üçün düşündükləri planlar, kimlərə, hansı dövlətlərə müraciət etdikləri qeyd olunub. Ona görə də biz bu iki mühüm və digər mənbələrdən istifadə edərək bu əsəri yazdıq. Birmənalı şəkildə deyə bilərəm ki, bizim tərəfimizdən son 100 ildə ermənilər və onların himayədarları tərəfindən həyata keçirilən saxtakarlıqlara baxmayaraq, sübut olundu ki, İrəvan qədim Azərbaycan şəhəridir və ermənilərə verilən ətraf torpaqlar Azərbaycan xalqına məxsusdur. Bu fikri təsdiq edən daha bir mühüm sənədi sizə təqdim etmək istəyirəm. Bu Osmanlı sultanı IV Muradın 1635-ci ilə aid "Rəvan qalası fəthnamə"sidir. Osmanlı mənbəsi olan bu sənəddə İrəvan şəhərini, Azərbaycanın seçilmiş şəhərləri sırasında yer aldığına işarət edərək belə təsvir edirlər:

"ab-ı ru-yı məmalik-i İran u Turan, bab-ı Naxçıvan u Şirvan, rəşk-i mülk-i Azərbaycan olan qala-yı Rəvan", yəni "İran və Turan məmləkətlərinin üzünün suyu, Naxçıvanın və Şirvanın qapıları, Azərbaycan mülkünün həsəd doğuran Rəvan qalası".

Hərfən "üzünün suyu" olarak tərcümə edilən, məcazi mənada isə "ismət, şərəf, namus" anlamına gələn "ab-ı ru" epitetinin, Sultan IV Murad tərəfindən 1635-ci ildə bu şəhəri fəth etməsi münasibətilə yazılan "Rəvan qalası fətihnaməsi"ndə (Erdoğru M.Akif, "1635 Tarihli Revan Kkalesi Fetihnamesi", Tarih İncelemeleri Dergisi, XIV, İzmir 1999, Ege Üniversitesi Edebiyat Fakültesi Yay., s. 29) də məhz İrəvana aid edilərək zikr olunması diqqətəlayiqdir. Mən fürsətdən istifadə edib bu sənədi təqdim etdiyinə görə t.ü.f.d. Fərəh xanım Hüseynə öz dərin təşəkkürümü bildirirəm. Bilirsiniz, məni bir azərbaycanlı kimi həmişə incidən, bir sualı vermək istəyirəm. ***"İsmət, şərəf, namus"*** simvolu olan bu qədim Azərbaycan şəhərini Siz, xəyanət təcəssümü olan ermənilərə necə güzəştə getdiniz? Torpaq xalqın və millətindir. Onu xalqın razılığı olmadan kiməsə güzəştə getmək cinayətdir. Xalq isə bu cinayəti heç kimə bağışlamır.

- Türkmənçay müqaviləsin 15-ci maddəsinə əsasən ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi nəzərdə tutulurdu. Maraqlıdır, Osmanlı və Qacarlar İranı ermənilərin öz ərazilərindən Şimali Azərbaycan torpaqlarına köçürülməsinə necə razılıq verdilər? Bu dövlətlərin ermənilərin öz ərazilərindən çıxarılmasında maraqları nə idi?

- Qafqazın işğal planını hazırlayarkən Çar Rusiyasının kəşfiyyat orqanları, məmurları burada yaşayan xalqların hansının onlara meyilli olacağını, hansının yaşadığı dövlətə qarşı xəyanət yolunu tuta biləcəyini araşdırmışdılar. Çox qəribə bir məqamdır ki, burada yaşayan xalqların heç biri bu yolu tutmadı. Qacarlar İranı və Osmanlı imperiyası ərazilərində yaşayan ermənilər bu yolu tutdular. Ermənilər Cənubi Qafqaz ərazisində yaşamırdılar. Ancaq, ermənilər ruslara söz verdilər ki, əgər onlara himayədarlıq edərlərsə, Çar Rusiyasının Qafqaza, Yaxın Şərqə çıxma planına yardım edəcəklər. Doğrudur, rusların Qafqaza gəlməsində gürcü çarı II İraklinin də "xidmətləri" vardır. İndi Gürcüstanla Rusiya Federasiyası arasında yaranmış gərgin siyasi münasibətlər hamıya məlumdur. Rusiya tarixçiləri bu faktı indi gürcülərə daima xatırladırlar. T.ü.e.d. N.Narocinskayanın televiziya çıxışları bunu bir daha təsdiq edir. Digər tərəfdən istər Qacarlar İranı və istərsə də Osmanlı Türkiyəsinin hakim dairələri ermənilərin xəyanətkar xislətlərinə bələd olduqları üçün bu işdə maraqlı idilər. Amma Azərbaycan xalqı bu işğalçı yürüşə qarşı böyük müqavimət göstərib. Konkret olaraq 1803-cü ildə Gəncə xanlığının göstərdiyi müqaviməti, yaxud milli tariximizdə İrəvan xanlığının tarixi müstəsna bir yer tutur. 24 il Çar Rusiyası hökuməti bu xanlığın ərazisini işğal edə bilmədi.

- İrəvanın Milli Şura tərəfindən ermənilərə güzəştə gedilməsi ilə bağlı bir sıra iddialar irəli sürülür. Tarixi gerçəklik nədən ibarətdir? Milli Şura İrəvanı ermənilərə niyə güzəştə getdi?

- İndi Ermənistan adlanan ərazinin bir hissəsi—1918-ci ildə İrəvan şəhəri də daxil olmaqla 9 min kvadratkilometr həcmdə Azərbaycan Milli Şurası tərəfindən ermənilərə güzəştə gedilib. Güzəştə getmənin hansı şərtlər daxilində baş verməsi tədqiqatlar nəticəsində bizə məlumdur. Yəni, güzəştə getmə zamanı Milli Şura Azərbaycan xalqının fikrini nəzərə almayıb. Referendum və ya sorğu keçirməyib, bunu təsdiq edən heç bir hüquqi sənəd yoxdur. Milli Şuranın 1918-ci il 29 may tarixində verdiyi qərar beynəlxalq hüquq nöqteyi-nəzərindən qeyri-legitimdir. İlk növbədə ona görə ki, Milli Şura xalqın adından çıxış edən bir orqan idisə, onda torpaq məsələsini həll edərkən referendum keçirməsi ilə bağlı xalqa müraciət etməli idi. Çox təəssüf ki, bu müraciət edilməyib.

- Milli Şura üzvlərindən İrəvanın güzəştə gedilməsinə etiraz edənlər olubmu?

- Əlbəttə, olub. İrəvandan olan 3 millət vəkili—Mirhidayət Seyidov, Bağır Rzayev, Nərimanbəy Nərimanbəyov iki dəfə Milli Şurada bu qərara baxılması və İrəvan şəhərinin verilməsinə etiraz olaraq qaldırdıqları məsələ müzakirə olunmayıb. Bu fakt 1918-ci il 29 may tarixində Milli Şuranın keçirilən iki iclasının protokolunda öz əksini tapıb. Mən bu sənədləri nəşr etdirən Milli Arxiv İdarəsinin rəisi, tarix üzrə elmlər doktoru, çox hörmətli Ataxan müəllim Paşayevə təşəkkür edirəm. Bununla da Azərbaycan xalqının iradəsinin əksinə olaraq belə bir qərar qəbul olunub. Ona görə də xalqımız və dövlətimiz Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olması, bu hüquqdan istifadə edərək həmin qərarın qeyri-qanuni formada qəbul edilməsinə dair məsələ qaldırmaq və onun ləğvi ilə bağlı təşəbbüslə çıxış edə bilərik.

- İrəvanın ardınca digər Azərbaycan əraziləri ermənilərə verildi. Bu necə baş verdi?

- Yuxarıda qeyd etdiyim kimi, 1918-ci ilin 29 mayında güzəştə gedilən ərazi, yəni, İrəvan şəhəri və ətrafındakı ərazinin həcmi 9 min kvadratkilometr idi. Ondan əlavə, 1921-1929-cu illərdə Azərbaycanın qədim torpağı olan Zəngəzur - 7.5 min kvadratkilometr ərazinin 4 bölgəsi - Qarakilsə (Sisyan), Gorus, Qafan və Mehri Ermənistan SSR-ə verildi. Bu ərazi Sovet hökuməti tərəfindən yenə də Azərbaycan xalqının iradəsinin əksinə olaraq ermənilərə verilib. Bununla da Azərbaycan xalqına qarşı daha bir ağır cinayət törədilib, qədim Naxçıvan diyarı Azərbaycanın əsas ərazisindən ayrı salınıb. Məsələ burasındadır ki, 1918-20-ci illərdə ermənilər burada 115 kəndi yerlə-yeksan edib, azərbaycanlılara qarşı soyqırımı cinayəti törədiblər. Əgər 1918-ci ildə 9 min kvadratkilometr Azərbaycan ərazisi verilmişdisə, sonradan Zəngəzur və onun 4 mahalı daxil olmaqla, əlavə olaraq Göyçə gölü ətrafındakı və Naxçıvan diyarı torpaqlarından, ümumi sahəsi 20.8 min kvadratkilometr olmaqla Azərbaycan xalqının iradəsinin əleyhinə olaraq torpaqlar Ermənistan SSR-ə verildi. Bu məsələlər Milli Məclisdə müzakirə olunaraq, 1918 və 1921-1929-cu illərdə verilmiş qərarların qeyri-legitim olması barədə qərar çıxarılmalıdır. İlk növbədə ona görə ki, ermənilər Azərbaycan xalqına qarşı soyqırım cinayəti törədiblər. Həmçinin 1988-1994-cü illərdə həyata keçirilən işğalçı müharibə nəticəsində Azərbaycan Respublikasının 946 şəhər və qəsəbəsi yerlə-yeksan edilib. Xocalıda, Qaradağlıda soyqırım cinayətləri törədilib. Bütün bunları nəzərə alaraq beynəlxalq hüquq nöqteyi-nəzərindən bu məsələlərin Milli Məclisdə müzakirəsi, müvafiq qərarın qəbul edilməsi ilə bağlı əsas var. Buna qarşı heç kim etiraz edə bilməz. Çünki, İrəvan şəhəri, onun ətrafında olan torpaqların, Zəngəzur və Göyçə gölü ətrafı ərazilər "güzəştə" gedilərkən Azərbaycan xalqı tərəfindən yüksək humanizm və tolerantlıq nümayiş etdirilib. Lakin bunun əvəzində Azərbaycan xalqı özünə qarşı cinayət görüb. Ona görə də müasir beynəlxalq hüququn bütün normalarını, ilk növbədə Azərbaycan xalqının milli mənafeyini nəzərə alaraq bu torpaqların ermənilərə verilməsinin qeyri-qanuniliyi və bu ərazilərin geri qaytarılması haqqında qərarın qəbul edilməsinə çox böyük ehtiyac vardır.

Azərbaycan xalqına qarşı son 200 ildə törədilən cinayətlərə beynəlxalq hüququn bütün normalarını tətbiq etdikdə xalqımıza qarşı cinayətin törədilməsi faktı təsdiqlənəcək. Qeyd etmək istəyirəm ki, bu fakt ümummilli lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixdə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" adlı fərmanda əks olunub və öz hüquqi-siyasi qiymətini alıb. Ən dəhşətlisi odur ki, Azərbaycan torpaqları ələ keçirilib, işğal olunub və işğal olunan ərazilərə, bu xalqa düşmən kəsilən zümrə köçürülüb. Həmin zümrənin əlinə Sovet dövləti və Qərb dövlətləri silah verilərək Azərbaycan xalqına qarşı daha ağır soyqırım cinayətləri törətdirilib. Heç bir xalqın tarixində belə məqamlar yoxdur. Ona görə də 1918-ci ildə və 1921-1929-cu illərdə həmin ərazilərin ermənilərə güzəştə gedilməsi qeyri-qanunidir. Bununla bağlı məsələlər Tarix İnstitutunda geniş şəkildə tədqiq olunur.

- Yenidən Milli Şura məsələsinə qayıtmaq istərdik. Sizcə Şura tərəfindən İrəvanın ermənilərə verilməsinə zərurət vardımı? İrəvanın verilməsində məqsəd nə idi?

- Heç bir zərurət yox idi və verilməyə də bilərdi. Təəssüflər olsun ki, bu məsələdə də Milli Şuradakılar arasında birlik olmayıb. Bu torpaq məsələsi idi və siyasi, partiya mənsubiyyətinə baxmayaraq, hamı orada iştirak etməli idi. Cümhuriyyət elan olunarkən 44 nəfər Seymin üzvü idi. İrəvan şəhəri verilərkən orada 28 nəfər iştirak edib. Onlardan 16-sı "hə" deyib, 3 nəfəri bitərəf qalıb, 1 nəfər yox deyib. 8 nəfərin iştirakı isə məlum deyil. Ümumi say nöqteyi-nəzərdən götürərkən, təəssüf ki, keçirilən iclasda cəmi 20 nəfərin iştirakı ilə İrəvan ermənilərə verilib. Yəni, legitimlik prinsipi gözlənilməyib. *(Bax: Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. Bakı, 2006. Səh. 130, 131, 132, 133, protokol 23, 24. F. 970, siyahı 1, iş 1. Vərəq 51, 52, 53, 54).* Bu baxımdan İrəvanın ermənilərə verilməsi üçün heç bir zərurət yox idi.

Ermənilər gözləyirdi ki, Azərbaycan tərəfi nəyi güzəştə gedəcək. İrəvan əhalisin 95 faizi azərbaycanlı idi. Necə olur ki, yerli əhalinin rəyi soruşulmadan qərar qəbul edilir? Ona görə də İrəvanın verilməsinə kəskin şəkildə etiraz olub. Bayaq söylədim. Etiraz edənlər kimlər idi? ONLAR İrəvandan olan Milli Şura üzvləri Mirhidayət Seyidov, Bağır Rzayev və Nərimanbəy Nərimanbəyov idi. Ona görə də biz tariximizi bütün dəqiqliyi ilə bilib və bu gün 25 illliyini qeyd etməyə hazırlaşdığımız müstəqilliyimizi qorumaq üçün heç vaxt səhvə yol verə bilmərik. Çinlilərin "Keçmişini bilməyən xalqın gələcəyi yoxdur" kimi məşhur bir ifadəsi var. Biz bütün keçmişimizi necə var, elə bilməliyik. O zaman buraxılan səhv, bir şəhərin və ətrafındakı torpaqların ermənilərə güzəştə gedilməsi bu gün Azərbaycan xalqı üçün həddən ziyadə baha başa gəlir. Bunun əziyyətini indiyə qədər bütün nəsillər çəkir. Heç kimi ittiham etmirəm.

Baxın, 1996-cı ildə ATƏT-in Lissabon zirvə toplantısı keçirilirdi. O vaxt Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsi sammitin yekun sənədində öz əksini tapmamışdı. Ulu Öndər Heydər Əliyevin atdığı bir diplomatik addım Azərbaycan xalqının mənafeyini yüksək səviyyədə müdafiə etdi. Milli Şuranı yaradanlar, hansı ki, Peterburq, Moskva və Avropanın digər ali təhsil ocaqlarında təhsil alan və Avropanı yaxşı bilən insanlar bilmirdi ki, belə bir qərarın sonu nə ilə bitəcək? İndi də anlamıram ki, bu qərarı necə qəbul ediblər. Fransa tarixinə nəzər yetirin. 1815-ci il Vyana konqrensində Taleyran ona nail oldu ki, Fransanın ərazisi bölünmədi və o 1792-ci il sərhədlərinə qaytarıldı.

Ermənilər İrəvanın verilməsinə qədər Şimali və Cənubi Azərbaycanda azərbaycanlılara qarşı soyqırım cinayəti törətmişdilər. Ona görə də tam şəkildə hüququmuz var ki, beynəlxalq aləmdə bu məsələni qaldırıb, Azərbaycan xaqlına qarşı soyqırımı cinayəti törədilməsi faktını ortaya qoyub, 1918-ci ildə Milli Şuranın və 1921-1929-cu illərdə Sovet Rusiyası və SSRİ hökumətlərinin qəbul etdiyi qərarları ləğv edərək, o torpaqların geri qaytarılmasını tələb etmək lazımdır. Baxın, bu dəhşətli faciənin üstündən 98 il keçir və bu keçən müddət ərzində Azərbaycan xalqına qarşı ermənilərin əli ilə hansı cinayətlər törədilməyib? Bu, çirk edən bir yara kimi Azərbaycan xalqını incidirmi? İncidir.

- İrəvanın ermənilərə verilməsində Milli Şuraya hər hansı xarici təzyiq olubmu?

- Təbii ki, İrəvanın ermənilərə verilməsi ilə bağlı Azərbaycana beynəlxalq təzyiq də olub. Təzyiq Qərb dövlətləri və Osmanlı imperiyası tərəfindən olub. Bu barədə t.ü.f.d. Vasif Qafarovun 2009-cu ildə nəşr etdirdiyi "Türkiyə və Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922-ci illər)" (Bakı, 2009) adlı əsərində çox qiymətli arxiv sənədləri əsasında yazılan məlumatlar öz əksini tapıb. Ona görə də kim maraqlanırsa bu əsərə diqqətlə baxa bilər. Bunu qardaş ölkənin alimləri də bilir. Biz bu məsələləri araşdırmışıq. Yəni, bu şəhərin ermənilərə verilməsi məsələsinə istənilən nöqteyi-nəzərdən yanaşılarsa-yanaşılsın, bu qərar qeyri-qanunidir. Eyni zamanda nəzərə almaq lazımdır ki, beynəlxalq aləm Cümhuriyyəti de-yure tanımadı. Səbəb isə Bakı nefti idi. 1917-ci ilin oktyabrından 1922-ci ilə qədərki dövrdə böyük dövlətlərin mübarizə apardığı əsas məsələ Bakı neftini ələ keçirmək idi. Kim Bakı neftini ələ keçirəcəkdisə, o da dünyanı idarə edəcəyini düşünürdü. Təsadüfi deyil ki, İngiltərənin baş naziri Uinston Çörçill məşhur ifadəsində deyir ki: "əgər neft krallıqdırsa, Bakı onun tacıdır".

Çar Rusiyası ilə Sovet Rusiyasının Azərbaycan məsələsində mövqeyi eynidir. Azərbaycanın dövət müstəqilliyinin bərpası və ya mövcudluğu məsələsi heç vaxt onların gündəliyində olmayıb. Ona görə də Cümhuriyyətin rəhbərlərinin, xüsusilə də Fətəli xan Xoyskinin bütün cəhdlərinə baxmayaraq, Sovet Rusiyası Azərbaycanın dövlət müstəqilliyini tanımadı. Nəhayət, 1920-ci ildə içimizdəki xəyanətkarların bilavasitə yardımı ilə Şimali Azərbaycan yenidən Rusiya tərəfindən işğal olundu. Ona görə də Azərbaycan xalqına qarşı törədilən soyqırım cinayətlərinin səbəblərindən biri Bakı nefti idi.

Daha maraqlı bir fakta diqqət yetirin. 1919-cu ildə "Standart Oya" sahibi Rokfeller ABŞ prezidenti Vudro Vilsonu Paris sülh konfransına yola düşərkən yanına çağırır və ona Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müstəqilliyini tanımağı qadağan edir. Eləcə də 1920-ci ildə yeni seçilən prezident Uorren Hardinq qarşısında eyni tələb qoyulmuşdu. Səbəb isə Nobellərin öz səhmlərini "Standart Oyl" şirətinə satması idi. Yəni, əsas məsələ Bakı neftinə kimin sahib olması idi. Ona görə də bütün vuruşan dövlətlərin planı Bakı neftinə sahib olmaq idi. Bugünkü qondarma Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin kökündə Bakı nefti durur. Bunu təsdiq edən faktlar mövcuddur. Belə ki, 1992-ci il müstəqilliyinin bərpasının ilk ayları idi. Rusiya Federasiyası Müdafiə Nazirliyi yanında Müdafiə Tədqiqatları İnstitutu təsis olunur və bu institutun ilk hazırladığı sənədlərdən biri Rusiyanın cənub sərhədlərində onun milli təhlükəsizliyinə təhlükə törədə biləcək konseptual qaydalar haqqında qərar qəbul edir. Bu qaydalarda 4 bənd var.

Birinci, Azərbaycan müstəqil dövlət olaraq öz neftindən necə istifadə edəcək. Bununla bağlı ilk növbədə qərar qəbul olunur ki, Xəzərin hüquqi statusunu heç vəchlə tanımamaq.

İkinci, əgər Azərbaycan bu hüququndan müstəqil istifadə edərsə, bura gələn Qərb investorlarını çıxarmaq üçün qüvvə tətbiq etmək.

Üçüncü, Azərbaycan Respublikası ilə Türkiyə arasındakı ərazi yaxınlığını maksimum dərəcədə uzatmaq.

Dördüncü, Gəncə və Yevlax istiqamətində erməni hərbi qüvvələrinin hərbi hücumunu gücləndirmək. İndi yeddi rayonun işğalı bu dörd bənddən üçüncüsüdür. Bu plan Rusiya Federasiyasını MN BQ yanında Müdafiə Tədqiqatları İnstitutunda hazırlanıb. Müstəqil dövlət olaraq Ermənistan heç vaxt bu qədər ərazini işğal etməyə və bu müddətə işğalda saxlamaq qüdrətinə malik deyildi. Bizim ordumuz əslində erməni hərbi formasını geyinən keçmiş sovet hərbiçilərinə qarşı vuruşub. Bu, danılmaz bir həqiqətdir.

- Cümhuriyyət dövründə İrəvanın ermənilərə verilməsi məsələsi parlamentdə müzakirə olunubmu?

- Bir faktı qeyd edim ki, 1918-ci ilin iyun və iyul aylarında hökumətdə bu məsələ və ermənilərin törətdikləri cinayətlər müzakirə olunub. Fətəli xan Xoyski və Məmməd Əmin Rəsulzadə arasında da bu haqda müzakirə aparılıb. Hətta, M.Ə.Rəsulzadənin belə bir ifadəsi var ki, "görünür, biz çox böyük bir səhvə yol vermişik". Yəni, verdikləri qərarın nə qədər böyük səhv olduğunu gec də olsa başa düşmüşdülər. Qərb dövlətləri Osmanlı Türkiyəsinə qarşı min il apardıqları mübarizə nəticəsində ermənilərin simasında özlərinə burada - Azərbaycan torpağında dayaq tapdılar. Ona görə də Milli Şuranın qərarını hüquqi sənəd kimi götürürlər. Biz isə bu sənədi ləğv etməliyik.

"Respublika".